Bu Ümumi Qaydalar və Şərtlər Bolt tətbiqinin (sərnişinləri sürücülərlə birləşdirən, onlara şəhərlərdə daha səmərəli hərəkət etməyə kömək edən texnologiya) istifadəsinə tətbiq edilən və onu tənzimləyən şərtləri müəyyən edir.

“Bizim” və ya “biz” kimi istinadlar istifadə edildikdə ”BOLT SERVİCES AZ”, Azərbaycan Respublikasının qanunlarına əsasən 1503463041 (VÖEN) qeydiyyat nömrəsi ilə təsis edilmiş və qeydiyyatdan keçmiş, hüquqi ünvanı Bakı şəhəri, Xətai rayonu, Xocalı küçəsi, Azərbaycan Respublikası AZ1025 olan, 16 oktyabr 2023-cü il tarixli 10006 nömrəli TSO seriyalı taksi sifarişi operatoru icazəsi olan və ya “BOLT SERVİCES AZ” tərəfindən Bolt Xidmətləri təmin edilmədiyi təqdirdə Bolt qrupu şirkəti və ya tərəfdaş şirkətlər nəzərdə tutulur. Bolt qrupu şirkətlərinin və tərəfdaşlarının siyahısı https://bolt.eu/cities/ saytında mövcuddur

Bolt tətbiqindən istifadə etmək üçün siz aşağıda göstərilən şərtlərlə razılaşmalısınız:

**1. Bolt tətbiqindən istifadə**

1.1. Bolt, Bolt proqramı vasitəsilə sərnişinlər və sürücülər arasında sürücülər üçün taksi sifarişi xidmətləri də daxil olmaqla nəqliyyat xidmətləri üçün müraciətlərin vasitəçiliyinə imkan verən xidməti, təqdim edir və Bolt nəqliyyat xidmətləri göstərmir. Nəqliyyat xidmətləri sərnişinlərin daşınması üçün (sizinlə) bağlanmış müqavilə əsasında sürücülər tərəfindən həyata keçirilir. Sürücülər iqtisadi və peşəkar xidmət təminatçıları kimi müstəqil əsaslarla (şəxsən və ya şirkət vasitəsilə) nəqliyyat xidmətləri göstərirlər. Bolt sərnişin (siz) və sürücü arasında bağlanmış müqavilənin yerinə yetirilməsi üçün heç bir şəkildə məsuliyyət daşımır. İstehlakçı hüquqlarından, qanuni öhdəliklərdən və ya nəqliyyat xidmətlərinin göstərilməsi ilə bağlı qanundan irəli gələn mübahisələr sərnişinlər və sürücülər arasında həll ediləcək. Sürücülər və onların nəqliyyat xidməti ilə bağlı məlumatlar Bolt tətbiqində mövcuddur və səyahətlər üçün qəbzlər sərnişinin profilində qeyd olunan elektron poçt ünvanına göndərilir. Bu Ümumi Qaydalar və Şərtlərlər razılaşmaqla siz qəbul edir və razılaşırsınız ki, İstehlakçıların Hüquqlarının Müdafiəsi haqqında Azərbaycan Respublikası qanununa əsasən xidmət göstərən tərəf sürücüdür.

1.2. Sərnişin (siz) Bolt tətbiqi vasitəsilə nəqliyyat xidmətlərinin göstərilməsi üçün sürücü ilə müqavilə bağlayır. Səyahət yeri üçün dəstəklənən ödəniş seçimlərindən asılı olaraq, siz nəqliyyat xidməti üçün sürücüyə nağd şəkildə və ya Bolt Tətbiqdaxili Ödənişindən istifadə edə bilərsiniz. Bolt Business səyahətləri üçün ödənişlər Biznes səyahətləri üçün ayrıca bağlanmış müqavilə ilə həyata keçirilir. Ödənişlərə qüvvədə olan qanuna uyğun olaraq tətbiq edilən vergilər daxil olacaq. Bununla belə, tətbiq olunan qanuna əsasən, əlavə vergilər tətbiq edildikdə (məsələn, banklar tərəfindən hesablanan və tutulan) və Bolt-un onları Bolt Tətbiqində göstərilən ödənişlərə daxil etmək öhdəliyi olmadığı hallarda, bu cür əlavə vergilər tətbiq olunan qanunvericiliyə uyğun olaraq tətbiq ediləcək və əlavə tutulacaq. Ödənişlərə digər müvafiq rüsumlar, yığımlar və/və ya əlavə ödənişlər , o cümlədən sifariş haqqı, bələdiyyə rüsumları, hava limanı üzrə əlavə ödənişlər və ya hissəli ödənişlər üçün xidmət haqqları daxil oluna bilər. İstəyirsinizsə, siz həmçinin sürücüyə birbaşa və ya Bolt-Tətbiqdaxili Ödəniş vasitəsilə Bəxşiş ödəyə bilərsiniz. Biz öz mülahizəmizə uyğun olaraq Bəxşişin maksimum dəyəri məhdudlaşdıra və ya Bəxşiş məbləğinin bir neçə variantını təklif edə bilərik.

1.3. Bolt Tətbiqinin quraşdırılması zamanı sərnişinin mobil nömrəsi müvafiq Bolt istifadəçi hesabına əlaqələndirilir və məlumat bazamıza əlavə edilir. Mobil nömrənizdən istifadə etmədiyiniz halda, hesab məlumatlarınızı anonimləşdirmək üçün 7 gün ərzində Bolt-u xəbərdar etməlisiniz. Nömrənizdə hər hansı dəyişiklik barədə bizə məlumat verilmədiyi halda, mobil operatorunuz eyni mobil nömrəni digər şəxsə sata bilər və həmin şəxs Bolt tətbiqindən istifadə edərkən sizin məlumatları əldə etmə imkanına sahib olacaqdır.

1.4. Fərdi məlumatlarınız https://bolt.eu/en/legal/privacy-for-drivers/ ünvanında mövcud olan Məxfilik Bildirişinə uyğun olaraq işləniləcək. Bu Ümumi Qaydalar və Şərtlərlə razılaşaraq, Məxfilik Bildirişinin şərtlərini qəbul edirsiniz və bu, qüvvədə olan qanunvericilik və

tənzimləmələrə əsasən qəbul edilən şəxsi məlumatların istifadəsi üçün yazılı razılıq deməkdir.
1.5. Bolt Tətbiqi və ya Nəqliyyat Xidmətlərindən istifadə zamanı digər vasitələrlə əldə olunmuş və ya qeydiyyatdan keçirilmiş fərdi məlumatlarınız Məxfilik Bildirişinə uyğun olaraq, fərdi məlumatlar üzrə informasiya sistemlərinin dövlət qeydiyyatı daxil olmaqla qüvvədə olan qanunvericilik və tənzimləmələrə əməl etmək üçün işlənilə, ötürülə və ya digər formada istifadə oluna bilər. Bu Ümumi Qaydalar və Şərtlərlə razılaşaraq, Məxfilik Bildirişinin şərtlərini qəbul edirsiniz və bu, qüvvədə olan qanunvericilik və tənzimləmələrə əsasən qəbul edilən şəxsi məlumatların istifadəsi üçün yazılı razılıq deməkdir.
1.6. İstehsalçının göstərişlərinə zidd olan hər hansı bir şəkildə mobil cihazınızın proqram təminatı və ya əməliyyat sistemi səviyyəsində köklənməsi, dəyişdirilməsi və ya limitlərin qırılması cihazı mobil təhlükələrə qarşı həssas edir. Siz təsdiq edirsiniz ki, belə dəyişdirilmiş mobil cihazın istifadəsi ilə bağlı hər hansı itkilərə görə Biz məsuliyyət daşımırıq və belə bir cihazın istifadəsini dəstəkləmək öhdəliyimiz yoxdur.

**2. Promo Kodlar**

2.1. Bolt hər bir promo aksiya əsasında sizə promo kodları göndərə bilər. Promosyon kodu krediti, xidmət və/və ya üçüncü tərəfin xidməti ilə bağlı səyahət və ya digər xüsusiyyətlər və ya üstünlüklər başa çatdıqdan sonra ödəniş üçün tətbiq edilə bilər və hər bir promosyon kodu əsasında müəyyən edilmiş hər hansı əlavə şərtlərə tabedir. Promo kodu hesabınıza tətbiq etdikdən sonra promo kodlarının istifadə müddəti tətbiqdə əks olunacaq. Promo kodu krediti gediş başa çatdıqdan sonra ödəniş üçün, xidmət və/və ya üçüncü tərəfin xidməti ilə bağlı digər xüsusiyyətlərə və ya üstünlüklərə tətbiq edilə bilər və həmin promo koda ayrıca olaraq əlavə şərtlər tətbiq edilir. Promo kodu hesabınıza tətbiq etdikdən sonra promo kodlarının istifadə müddəti tətbiqdə əks olunacaq.
2.2. Səyahət məbləğiniz səyahətinizə ayrılmış kreditdən artıq olduqda, balans avtomatik olaraq hesabınızın ödəniş metodundan çıxılacaq. Eyniliklə, promo kod krediti yalnız hər gediş üçün tətbiq edilir və növbəti gedişə/səyahətə keçə bilməz və buna görə də ləğv olunacaq. Hər səfərə yalnız bir promo kod tətbiq oluna bilər.
2.3. Bolt istənilən vaxt istənilən promo kodunu hər hansı bir səbəbdən ləğv etmək və ya promo kodlarından istifadə qaydalarını müəyyən etmək hüququnu özündə saxlayır (məsələn, promo kodlarından istifadə qaydası və digər endirimlər). Həmin hallara aiddir: Bolt tərəfindən kodların qeyri-qanuni şəkildə istifadə edildiyinin müəyyən edilməsi, kodların səhvən verilməsi və müddəti bitmiş kodların istifadəsi.

**3. Bolt Tətbiqdaxili Ödəniş**

3.1. Müvafiq ərazi üçün dəstəklənən ödəniş seçimlərindən asılı olaraq, Bolt Tətbiqində mövcud olduğu təqdirdə, Siz nəqliyyat xidmətlərini kart, mobil operator hesabı və ya digər ödəniş üsulları ilə ödəyə bilərsiniz (məsələn: Bolt Business). Bolt Tətbiqdaxili Ödəniş xidmətini təqdim etməklə Bolt nəqliyyat xidmətlərinin təminatçıları üçün kommersiya agenti kimi çıxış edir. Hər bir sürücü Bolt-a sürücü ilə sərnişin arasında müqavilələrin bağlanmasında, sərnişinlərdən ödənişləri qəbul etmək və ödənişləri sürücüyə ötürmək səlahiyyəti də daxil olmaqla, vasitəçilik etmək üçün kommersiya agenti kimi çıxış etməyə səlahiyyət verib. Bolt-un bank hesabına pul köçürmək üçün ödəniş tapşırığı verildikdə, nəqliyyat xidmətinin təminatçısı qarşısında öhdəliyiniz yerinə yetirilmiş olacaq. Siz, sərnişin olaraq, ödənişin həyata keçirilməsini və hesabınızda kifayət qədər vəsaitin olmasını təmin etmək üçün məsuliyyət daşıyırsınız.
3.2. Bəxşiş funksiyası regionunuzda mövcuddursa, Bolt Tətbiqdaxili Ödəniş xidmətindən istifadə edərək sürücüyə Bəxşiş ödəməyi seçə bilərsiniz. Bəxşiş Bolt tərəfindən bu məqsəd üçün icazə verilmiş vasitələrlə Tətbiqdaxili Ödəniş vasitəsilə ödənilə bilər. Bolt Bəxşişin vasitəçiliyi üçün komissiya tutmayacaq və Bəxşiş tam həcmdə, hər hansı bir vergilər (əgər varsa) istisna olmaqla sürücüyə ödəniləcək. Bəxşişin ödənilməsi qeyri-qanuni olması, göstərilən xidmətlə bağlı

müavinətdən başqa digər məqsədlə ödənildiyi şübhəsi olduqda və ya Bolt-un Qaydaları və Şərtlərinə zidd olduqda, Bolt Bəxşişin ödənilməsini dayandıra bilər.
3.3. Bolt Tətbiqdaxili Ödəniş vasitəsilə ödənişlər edərkən Bolt ödənişlərinizi qəbul edir və pulu sürücüyə ötürür. Bolt ödəniş üsulunu yoxlamaq üçün sizdən əlavə məlumat istəyə bilər.
3.4. Bolt Tətbiqdaxili Ödəniş vasitəsilə nəqliyyat xidmətləri üçün ödənişlər edərkən, Bolt üçüncü tərəfin mümkün ödəniş xərclərinə görə məsuliyyət daşımır (məsələn, mobil operatorlar, bank haqları və s.). Bu xidmət təminatçıları Bolt Tətbiqdaxili Ödənişlə əlaqədar ödənişləri emal edərkən sizdən əlavə haqq tələb edə bilər. Bolt bu cür ödənişlərə görə məsuliyyət daşımır və bununla bağlı bütün məsuliyyətdən imtina edir. Ödəniş metodunuza həmçinin ödəniş xidmətləri göstərən müvafiq üçüncü tərəf təminatçısına əlavə şərtlər tətbiq oluna bilər; ödəniş üsulunuzdan istifadə etməzdən əvvəl bu şərtləri nəzərdən keçirin.
3.5. Bolt Tətbiqdaxili Ödənişin fəaliyyətinə cavabdeh olacaq və problemlərin həllində dəstək verəcək. Bolt Tətbiqdaxili Ödənişi ilə bağlı mübahisələrin həlli də bizim vasitəmizlə həyata keçirilir. Ödəniş dəstəyi xidməti üçün əlaqə saxlayın: info@bolt.eu. Elektron poçt və ya Bolt Tətbiqi ilə göndərilən sorğular bir iş günü ərzində cavablandırılacaq. Bolt iki iş günü ərzində Bolt Tətbiqdaxili Ödənişlə bağlı şikayət və müraciətləri həll edəcək.
3.6. İlkin Gediş Haqqı. Sizə Sürücü tərəfindən təqdim edilən Nəqliyyat Xidməti ilə əlaqədar olaraq müəyyən edilmiş Gediş Haqqını istifadə etmək imkanı verən seçimindən istifadə etmə imkanı təklif oluna bilər (İlkin Gediş Haqqı). İlkin Gediş Haqqı Bolt Tətbiqi vasitəsilə sizə gediş tələb olunmazdan əvvəl bildirilir. Əgər siz səfər zamanı təyinat yerini dəyişsəniz, gediş müddəti əvvəlcədən təxmin edilən vaxtdan əhəmiyyətli dərəcədə uzun çəkdikdə, gedişin xüsusiyyətlərinə əhəmiyyətli dərəcədə təsir edildikdə (məsələn, marşrut ödənişli yerlərdən keçirsə) İlkin Gediş Haqqı tətbiq edilmir. İlkin Gediş Haqqı standart əsas tarifə, GPS-əsasında cihaz vasitəsilə müəyyən edilən, xüsusi səyahətin məsafəsinə və xüsusi səyahət müddətinə əsasən hesablanır və beləliklə taksometr funksiyalarını yerinə yetirən proqram təminatı kimi çıxış edir və bu cür qaydada müəyyən edilən Gediş Haqqı Sürücü və Sərnişin üçün öhdəlik yaradır.
**4. Nəqliyyat xidmətlərinin sifarişi və ləğvi**
4.1. Əgər siz nəqliyyat xidməti sifariş etsəniz və sürücü işi öz üzərinə götürməyə razıdırsa, nəqliyyat xidməti sifariş edilmiş sayılır.
4.2. Sürücü səyahətinizi başa vuracağını təsdiqlədikdən sonra siz sürücü ilə razılaşdığınız qayda və şərtlərlə səyahətin təmin edilməsi üçün sürücü ilə ayrıca müqavilə bağlayacaqsınız. Bolt səyahətləri təmin etmir və müvafiq sürücü ilə bağlanmış müqavilənin tərəfi deyil.
4.3. Sifariş verilmiş nəqliyyat xidmətindən istifadənin ləğvi; sürücünün sorğunuza cavab verməsi və sonradan tərəfinizdən nəqliyyat xidmətindən imtina edilməsi və ya onun ləğv edilməsi hesab olunur. Müəyyən müddətdən sonra nəqliyyat xidməti sorğusu ləğv edildikdə, sizdən ağlabatan ləğvetmə haqqının ödənilməsi tələb olunur.
4.4. 24 saat ərzində bir neçə dəfə ardıcıl olaraq nəqliyyat xidməti sorğusunu ləğv etsəniz, biz xəbərdarlıq məqsədilə hesabınızı müvəqqəti bloklaya bilərik. Bir neçə belə xəbərdarlıqdan sonra hesabınızı daha uzun müddətə (məsələn, 6 ay müddətinə) dayandıra bilərik. Bu müddətdən sonra siz hesabınızın yenidən bərpa edilməsini xahiş edə bilərsiniz və müraciətiniz Bolt tərəfindən nəzərdən keçiriləcəkdir.
4.5. Sürücü nəqliyyat vasitəsinin təyinat yerinə çatması barədə sərnişinə məlumat verdikdə və sərnişin və ya nəqliyyat xidmətləri sifariş edilən digər şəxslər Bolt Tətbiqində göstərilən müəyyən müddət ərzində nəqliyyat vasitəsinə gəlmədikdə, sorğu ləğv edilmiş sayılır. Bəzən sürücü sorğunuzu ləğv etmək qərarına gələ bilər, nəzərə alın ki, Bolt belə hallara görə məsuliyyət daşımır.
4.6. Sürücü təyinat məntəqəsinə çatdıqdan, bu barədə sizə bildiriş göndərdikdən sonra, Bolt Tətbiqi Tətbiqidə göstərilən tariflərə uyğun olaraq gözləmə vaxtı əsasında gözləmə haqqını

hesablamağa başlaya bilər.
4.7. Bolt Tətbiqindən istifadə edərək nəqliyyat xidmətlərinə müraciət etmisinizsə və sürücünün avtomobilinə və ya onun təchizatına zərər vursanız (nəqliyyat vasitəsini ləkələməklə və ya onun qoxusuna səbəb olmaqla), sürücü sizdən 100 AZN məbləğində cərimənin ödənilməsini və həmin məbləğdən artıq olan ziyanın ödənilməsini tələb etmək hüququna malik olacaq; həmin məbləğlər yerli olaraq ödənilirsə, müvafiq qanun və qaydaların tələblərinə əsasən yerli valyuta ilə ödənilməlidir. Cəriməni və/və ya dəymiş ziyanı ödəməsəniz, Bolt müvafiq iddiaları nəqliyyat xidmətinin təminatçısı adından irəli sürə bilər.
4.8. Bolt platformasının hər kəs üçün təhlükəsiz və etibarlı olmasını təmin etmək üçün sizə qarşı Sərnişinlər üçün Bazarda İştirak Qaydalarımıza əsasən tədbirlər görə bilərik. Bolt tətbiqindən istifadə etməklə siz təsdiqləyirsiniz ki, Sərnişinlər üçün Bazarda İştirak Qaydalarını oxumusunuz və onlara əməl etməyə razısınız.
**5. Bolt Tətbiqindən istifadə etmək üçün lisenziya**
5.1. Bu Ümumi Qaydalar və Şərtlərə əməl etdiyiniz müddətcə, biz sizə bu Ümumi Qaydalar və Şərtlərə, Məxfilik Bildirişi və tətbiq olunan tətbiq mağazası şərtlərinə uyğun olaraq, Bolt Tətbiqinə daxil olmaq və ondan istifadə etmək üçün royalti tətbiq edilmədən, geri alına bilən, qeyri-müstəsna hüquq verməyə razıyıq. Bolt Tətbiqindən istifadə etmək üçün həmin hüququ ötürə və ya sub-lisenziya verə bilməzsiniz. Bolt Tətbiqindən istifadə hüququnuz ləğv edildiyi təqdirdə, müvafiq qeyri-müstəsna lisenziya da ləğv ediləcək.
**6. Məsuliyyət**
6.1. Bolt Tətbiqi sərnişinlər və sürücülər arasında vasitəçilik xidməti (kommunikasiya vasitəsi) olduğundan, biz nəqliyyat xidmətlərinin keyfiyyətinə və ya göstərilməsində qüsurların olmamasına zəmanət verə və ya heç bir məsuliyyət daşıya bilmərik. Bolt Tətbiqindən nəqliyyat xidmətlərin sifariş edilməsi sürücülərin davranışından və Bolt-un nəzarətindən kənar digər hallardan asılı olduğundan, Bolt sizə nəqliyyat xidmətlərinin göstərilməsi ilə əlaqədar hər bir zaman müvafiq təkliflərin olacağına zəmanət vermir.
6.2. Bolt Tətbiqi sərnişinlər üçün nəqliyyat xidmətləri təklif etmir və ya broker xidməti göstərmir. O, həmçinin nəqliyyat təminatçıları üçün sərnişin tapmaq üçün nəqliyyat agentliyi xidməti göstərmir. Bolt Tətbiqi nəqliyyat xidmətlərinin göstərilməsinin təşkili üçün vasitə kimi istifadə olunur.
6.3. İstehlakçının pulu geri qaytarmaq hüququ Bolt Tətbiqi vasitəsilə edilən sifarişlərə tətbiq edilmir. Nəqliyyat xidmətləri ilə əlaqədar ödənilən pulun geri qaytarılmasını tələb etmək sizi nəqliyyat xidmətinin göstərilməsinə dair sifariş verildiyi müqavilədən irəli gələn öhdəliklərdən azad etmir.
6.4. Bolt Tətbiqi "olduğu kimi" və "mövcud olduğu kimi" əsasında təmin edilir. Biz Bolt Tətbiqindən istifadəni fasiləsiz və ya səhvsiz olacağına görə təminat və ya zəmanət vermirik. Proqram təminatında hər hansı nasazlıq olarsa, biz onları ən qısa zamanda düzəltməyə çalışacağıq, lakin nəzərə alın ki, tətbiqin işləməsi təsadüfi texniki səhvlər səbəbindən məhdudlaşdırıla bilər və biz tətbiqin hər zaman işləyəcəyinə zəmanət verə bilmirik, məsələn, fövqəladə hal zamanı xidmətin dayandırılması ilə nəticələnə bilər.
6.5. Bolt, onun nümayəndələri, direktorları və işçiləri Bolt tətbiqindən istifadə nəticəsində və ya Bolt Tətbiqi vasitəsilə təqdim edilən səyahətlərlə əlaqədar baş verə biləcək hər hansı itki və ya zərərə görə məsuliyyət daşımırlar, həmin zərər və itkilərə aşağıdakılar daxildir, lakin bununla məhdud olmur:
6.5.1. hər hansı birbaşa və ya dolayı maddi zərər və ya pul itkisi;
6.5.2. mənfəət itkisi;
6.5.3. biznes, müqavilələr, əlaqələr, reputasiya və biznesin dayandırılması nəticəsində yarana biləcək hər hansı bir itkilər;

6.5.4. məlumatların itirilməsi və ya qeyri-dəqiqliyi; və
6.5.5. hər hansı digər növ itki və ya zərər.
6.6. Bolt-un müqavilənin pozulması ilə bağlı maliyyə məsuliyyəti 1000 AZN ilə məhdudlaşdırılacaq. Əgər Bolt bu Şərtləri bilərəkdən pozduqda zərərin ödənilməsini tələb etmək hüququnuz olacaq. Bolt sürücünün hərəkətlərinə və ya hərəkətsizliyinə görə məsuliyyət daşımayacaq və sürücünün sərnişinlərə vurduğu ziyana görə məsuliyyət daşımayacaq.
6.7. Bolt Tətbiqindən istifadəniz nəticəsində (Bolt Tətbiqindən istifadə etməklə əldə etdiyiniz səyahətlər də daxil olmaqla) Bolt-u, onun filial şirkətlərini, nümayəndələrini, işçilərini və direktorlarını hər hansı iddia və ya zərərlərdən (hər hansı xarakterli öhdəliklər, zərərlər və xərclər daxil olmaqla) sığortalamağa razılaşırsınız.
6.8. Siz bu Ümumi Qaydaları və Şərtləri pozsanız və ya biz Bolt-un peşakarlığını və ya sürücülərin təhlükəsizliyini qorumağı zəruri hesab etsək, tərəfinizdən Bolt Tətbiqindən istifadəni dərhal dayandıra bilərik.

**7. Bolt Tətbiqindən istifadə edərək yaxşı təcrübə**

7.1. Bolt nəqliyyat xidmətlərinin təchizatçısı və ya brokeri olmadığı üçün, nəqliyyat xidmətlərinin nöqsanları və ya keyfiyyəti ilə bağlı hər hansı bir problem səyahət üçün tətbiq olunan qanun və qaydalara uyğun olaraq həll ediləcəkdir .
7.2. Bolt Tətbiqində rəy formasını doldurmağı xahiş edirik. Bu, bizə sürücülərə xidmət keyfiyyətinin yaxşılaşdırılması üçün təkliflər verməyə imkan verir.
7.3. Biz sizdən Bolt Tətbiqindən vicdanla istifadə etməyinizi və Bolt Tətbiqi vasitəsilə xidmətlərini təklif edən sürücülərə hörmətlə yanaşmanızı gözləyirik. Siz bu Ümumi Qaydalar və Şərtlərdə göstərilən şərtləri pozsanız və ya hərəkətləriniz təhlükəli olarsa, məsələn nəqliyyat xidmətinin göstərilməsinə görə ödənişin verilməməsi, qanunsuz hərəkətlər, sürücülərə qarşı hörmətsizlik, yol hərəkəti qaydalarını pozma və ya sürücüdən yol hərəkəti qaydalarını pozmağı tələb etmə və s., Bolt hesabınızı bağlamaq hüququnu özündə saxlayır. Bu hallarda, Bolt Tətbiq hesabınız əvvəlcədən xəbərdarlıq edilmədən ləğv edilə bilər.
7.4. Bolt onun Tətbiqindən yalnız vicdanlı, öz peşəsinə və sərnişinlərinə hörmət edən sürücülərin istifadə etməsi üçün hər cür səy göstərəcək. Bununla belə, Bolt Tətbiqi vasitəsi ilə təqdim edilən hər bir nəqliyyat xidmətlərin təchizatçısı hər zaman yuxarıda qeyd olunan meyarlara cavab verdiyinə zəmanət verə bilmirik. Təqdim edilən nəqliyyat xidməti ilə narazı olduqda, zəhmət olmasa, xidmətə cavabdeh olan şirkətə, nəzarət orqanına və ya müştəri dəstəyinə məlumat verin.

**8. Ümumi Qaydalar və Şərtlərə Dəyişikliklər**

8.1. Ümumi Qaydalar və Şərtlərə hər hansı əsaslı düzəlişlər edilərsə, o zaman sizə elektron poçt və ya Bolt Tətbiqi bildirişləri ilə məlumat veriləcək. Bolt Tətbiqindən istifadə etməyə davam etsəniz, düzəlişləri qəbul etmiş sayılırsınız.

**9. Yekun müddəalar**

Ümumi Qaydalar və Şərtlər Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir və şərh edilir. Ümumi Şərtlər və ya Müqavilədən irəli gələn müvafiq mübahisə danışıqlar yolu ilə həll edilə bilmədikdə, mübahisə Azərbaycanın müvafiq məhkəmələrində həll edilir. Əgər istehlakçısınızsa, yurisdiksiya istehlakçılara tətbiq olunan məcburi müddəalara uyğun olaraq müəyyən edilir. Ümumi Şərtlərin hər hansı müddəası icra edilməz hesab edilərsə, tərəflər həmin icra edilməz müddəanı əvəz etməlidir və həmin yeni müddəa həmin icra edilməz müddəanın ilkin niyyətinə uyğun olsun.

**Ümumi Şərtlər sonuncu dəfə 16.10.2023-cü il tarixində yenilənib.**